**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASI**

**QƏRAR**

**14**

Bakı şəhəri **24 may 2021-ci**

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 2018-ci il 31 yanvar tarixli 05 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsanın ölüm anının müəyyən edilməsi, reanimasiya tədbirlərinin dayandırılması meyarları və qaydası"nda dəyişiklik edilməsi barədə**

"İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1208 nömrəli Fərmanının 7-ci hissəsinin icrası məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini və 19-cu hissəsini rəhbər tutaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Kollegiyasının 2018-ci il 31 yanvar tarixli 05 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsanın ölüm anının müəyyən edilməsi, reanimasiya tədbirlərinin dayandırılması meyarları və qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bəndin ikinci cümləsində "və ya" sözləri "və" sözü ilə əvəz edilsin.

1.2. 2.3-cü bəndin dördüncü cümləsi çıxarılsın.

1.3. Aşağıdakı məzmunda 2.4-1 və 2.4-2-ci bəndlər əlavə edilsin:

"2.4-1. Meyitdən transplantasiya məqsədi ilə insan orqanlarının və toxumalarının götürülməsi zamanı bioloji ölüm və ya beyin ölümünün baş verməsi barədə qərar "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun 25.1-ci maddəsinə uyğun olaraq həkim konsiliumu tərəfindən qəbul edilir.".

2.4-2. "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun 25.4-cü maddəsinə əsasən donorun ölüm anının təsdiqində həkim-transplantoloqun və transplantasiya üzrə koordinatorun iştirakı qadağandır.".

1.4. 3.4-cü bəndə "Bioloji ölüm anı" sözlərindən sonra "bu Qaydanın 2.4-1-ci bəndi nəzərə alınmaqla" sözləri əlavə edilsin.

2. Qərar 2022-ci ilin yanvarın 1-dən qüvvəyə minir.

3. Daxili nəzarət şöbəsinə (S.Səfərov) tapşırılsın ki, bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

4. Qərarın icrasına nəzarət nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Kollegiyanın sədri,**
**nazirin birinci müavini,**
**Səhiyyə nazirinin vəzifələrini icra edən** **Teymur Musayev**

Kollegiyanın məsul katibi Cahan Bilalova